**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№371/2** **23 dekabr 2024-cü il**

**"Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik"lərin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 14 mart tarixli 354/3 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a uyğun olaraq və Palatanın 2024-cü il üzrə iş planının 4.3-cü "2025-ci ildə auditin keyfiyyətinə kənar nəzarətin aparılmasına dair plan-qrafikin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (B.Orucov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə (E.Əliyev) tərəfindən təqdim edilmiş "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün 1 və 2 nömrəli Plan-qrafik"lərin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün 1 və 2 nömrəli Plan-qrafiklər" təsdiq edilsin (əlavə olunur).

2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov), Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (E.Əliyev) tapşırılsın ki, 2025-ci il üçün nəzərdə tutulmuş auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin müvafiq Qaydaya uyğun olaraq vaxtında və keyfiyyətlə həyata keçirilməsi təmin edilsin.

3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov), Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) və Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (E.Əliyev) tapşırılsın ki, Publik Hüquqi Şəxslərdə və İctimai Əhəmiyyətli Qurumlarda aparılan auditlərdə şübhə doğuran hallar olduqda, həmçinin müvafiq müraciələr əsasında həmin auditlərin keyfiyyətə kənar nəzarət qaydasında monitorinqi aparılsın və monitorinqin nəticəsinə dair müvafiq təkliflər Palatanın rəhbərliyinə təqdim edilsin.

4. Bu qərarın və "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün 1 və 2 nömrəli Plan-qrafiklər"in mətnləri Palatanın internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**